# "Şabran" İstirahət Kompleksi "Ayurveda"nı Azərbaycana gətirib

Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə yeni ilə iki gün qalmış "Şabran" İstirahət Kompleksinin açılışında iştirak etməsi təsadüfi deyil. Ən azından "Şabran" İstirahət Kompleksi Azərbaycanda Hindistanın qədim təbabət sistemi - Ayurveda ilə müalicə üsullarını tətbiq edən ilk unikal istirahət mərkəzi olduğu üçün.

Hindistanda Ayurvedanın qızıl dövrü miladdan əvvəlki 327-ci və miladdan sonrakı 750-ci illəri əhatə edir. Qədim hind təbiblərinin hansı unikal biliklərə sahib olmasını başa düşmək üçün o dövrün loğmanlarından biri sayılan Suşrutanın bu sözlərini xatırlatmaq yerinə düşərdi: "Əgər loğman otlar və bitki kökləri ilə müalicə edə bilirsə, insan bıçağın və alovun sirlərinə bələddirsə, şeytan duaların, peyğəmbər civənin sirlərini bilirsə, Allahdır". Müasirləri hind təbibi və yazıçısı Suşrutanı "təbabətin atası" adlandırmışlar. O, təxminən bizim eranın VIII əsrində yaşamışdır. Əsərləri isə ərəb dilinə tərcümə edilmişdir. Suşruta 700-dən artıq müalicəvi bitki və onlardan dərmanların hazırlanması barədə bilgilər qoyub getmişdir. Səhiyyə tarixinə antik dövrün cərrahı kimi düşmüş Şuşruta ətrafların kəsilməsini, plastik cərrahiyyə və hətta keysəriyyə əməliyyatlarını həyata keçirmişdir.

İndi qayıdaq "Şabran"a. Peşəkar Pançakarma (toksinlərdən azadolma) mütəxəssislərinin Hindistan ənənələri əsasında xüsusi orijinal terapiya üsulları təklif etdikləri "Şabran" bura üz tutanlara ənənəvi səhiyyə ilə yanaşı, qeyri-ənənəvi səhiyyə xidmətləri də göstərəcək. Bakının 147 kilometrliyində Şabran rayonunun Pirəbədil kəndində yerləşən istirahət kompleksi 12,6 hektar sahədə inşa olunmuşdur. Buradakı hoteldə müxtəlif kateqoriyalı 119 nömrə, birmərtəbəli 10, ikimərtəbəli 20 kottec inşa edilmişdir.

"Ayurveda Spa" Mərkəzində gözəllik salonu, 6 prosedur otağı, fin saunası, buxar otağı, istirahət zonası və qapalı hovuz var. Burada həmçinin fitnes və yoqa ilə məşğul olmaq üçün hər bir şərait yaradılmışdır. Mərkəzdə şəfalı Pançakarma prosedurları, Pranayama seansları, yoqa və həyat tərzi üzrə təlimlər təşkil olunacaq.

Eyni zamanda kompleksdə "Rübai", "Ahəng", "Ocaq" restoranları, "Misra Lobby Lounge", "Badə Lounge Bar", "Aura Cafe", müxtəlif əyləncə və oyun otaqları fəaliyyət göstərəcək. Hoteldə işgüzar görüşlər, konfranslar və xüsusi tədbirlər üçün 180 nəfərlik "Bayatı" və "Şiraz" konfrans zalları yaradılıb. Həm də yaradıcılıq mərkəzi kimi xidmət göstərəcək kompleksdə bəstəkarlar, yazıçılar və rəssamlar üçün kotteclər də nəzərdə tutulub.

Qeyd edək ki, Şabran rayonu turizm marşrutları üzrə mühüm istiqamətlərdən biri olmaq potensialına malikdir. Odur ki, artan tələbata uyğun olaraq rayon ərazisində infrastrukturun formalaşdırılması əsas vəzifələrdən biridir. Prezident İlham Əliyevin istifadəyə verilən yeni istirahət kompleksi ilə tanış olması isə dövlətimizin bu məsələyə həssas münasibətini nümayiş etdirir.

Kompleksin istifadəyə verilməsi həm də bölgələrdə turizm infrastrukturunda yeniliklərin tətbiqi baxımından xüsusi əhəmiyyət daşıyır. "Şabran"da təklif olunan xidmət və müalicə üsullarına gəldikdə, bunlar sağlamlıqlarını şəxsi bilik və təcrübələri hesabına qorumaq istəyənlər üçün həddən ziyadə vacibdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***



Azərbaycan. - 2022.-31 dekabr.- S.7.